



Xalq istedadlarını tanıyıb dəyərləndirməlidir... Çünki millət olaraq bu dünyaya özəl missiya ilə gəldiyimizi bir daha anlamış olacağıq

# Azərbaycanda aeroqrafiya təmsilçiləri

## Rəsmlərdə ən kiçik hissələr, parçalar son dərəcə dəqiqliklə aerozolla çəkilir



Əgər faktlara söykənərək, tariximizi incələsək, incəsənət və mədəniyyət aləmində nələrə qadir olduğumuzu təkrar nəzərdən keçirsək, bir daha görərik ki, sözün hər mənasında özəl bir xalqıq. Dünyada elə bir incəsənət növü və sənətlə bağlı səmt, yön yoxdur ki, Azərbaycan dahilərinin adı orda görünməsin, ilk sıralarda adımız yazılmasın. Hansı birinin adını çəksək peşəkarlıq, mükəmməllik önə cıxacaq, fərqlilik özünü göstərcək.

Keçmişdə olduğu kimi bu gün də ön sıralardayıq. Təsadüfi deyil ki, yeni yaranmış musiqi, ədəbiyyat, təsviri sənət, heykəltaraşlıq nümunələrimiz dünyada öz sözünü deməyi bacarır....

Aeroqrafiya - spreyli boyamada istifadə olunan trafaretin üç ölçülü cisimlə əvəz olunduğu sürrealist metod. Metoddan Viktoriya dövründə kaşıləri (keramika, daş, metal və hətta şüşə kimi davamlı materiallardan istehsal edilən parka - red.) dekorasiya etmək üçün və Man Rayın əsərlərində istifadə olunurdu.

Aeroqrafiya çox vaxt avtomobillər üzərində istifadə olunur.

Haqqında danışmaq istədiyimiz insan dünyada yeni nəsl rəsm növünə ölkəmizdə nəfəs, qol-qanad verən rəssam Elməddin Bayramovdur. Aeroqraf Elməddin Bayramov 16 aprel 1985-ci ildə füsunkar təbiəti olan Kəlbəcərdə doğulub. Uşaqlıqdan rəsmə marağı olan rəssam artıq 10 ilə yaxındır ki, aeroqrafiya ilə məşğuldur.

Azərbaycanda kətan üzərində yağlı boya ilə rəsm daha yayğındır. Aeroqrafiya sənəti isə yeni inkişaf etməyə başlayıb. Aeroqraf Elməddin Bayramov deyir ki, əvvəlki nəslin işləri qalıntılar altında qalıb, bu da onun göstəricisidir ki, belə sənətkarlar Azərbaycanda əvvəl də olub. Yeni inkişaf etdiyi üçün aeroqrafiya qraffiti və rəssamlıqla səhv salınır. Lakin aeroqrafiya tamamilə başqa bir sahədir. Burda işlər əsasən mexanizm və hava ilə icra olunur. Kətan və yağlı boya ilə işləmək daha asandır, çünki kətan yağlı boyanı yemir. Bir-iki gün ərzində əsərdə rəng tonları üzərində müəyyən dəyişikliklər etmək şansın olur. Aeroqrafiyada isə daha fərqlidir. Boya divara vurulan anda quruyur və onun üzərində hər hansı çalar dəyişikliyi etmək alınmır. Rəsmlərdə ən kiçik hissələr, parçalar son dərəcə dəqiqliklə aerozolla çəkilir.



Rəssamın sözlərinə görə, bu sahədə işləməyin çətinlikləri də var. Bu metod daha yeni olduğu üçün o, daha professional alətləri xaricdən sifariş etmək məcburiyyətindədir, çünki Azərbaycanda bu alətləri tapmaq olmur. Gənc rəssam bu sənət növünün ölkəmizdə də tanınmasını, daha geniş bir şəkildə inkişaf etdirilməsini arzu edir. Əgər belə olarsa, respublikamızda da bu sahə ilə bağlı avadanlıqların istehsalı mümkün olar. Azərbaycanda da sırf aeroqrafiyanın inkişafı ilə məşğul olan sahələrin yaranması lazımdır.

Aeroqraf deyir ki, insanlar onların işlərinə daha diqqətli yanaşmalıdırlar. Bəzən o, öz çəkdiyi işlərin olduğu yerlərin söküldüyünü görür. Aeroqrafiyanın da mənfi xüsusiyyəti məhz elə budur, əsər gələcək nəsillərə ötürülmür. Bizim əsərlərimizi gələcək nəsillər sadəcə videogörüntülərdən və şəkillərdən görə bilmə şansına sahibdirlər.

Elməddin Bayramovun 44 günlük şanlı Zəfər yolunu keçən qəhrəmanlarımızın çəkdiyi rəsmləri isə ayrıca bir söhbətin mövzusudur. Rəssam onları əbədiləşdirməklə mənəvi rahatlıq tapdığını deyir:

"Hər biri bir igidlik, qəhrəmanlıq dastanıdır".

Onu da qeyd etmək lazımdır ki, rəssamın işləri sadəcə ölkəmizdə rəğbət görmür, eyni zamanda qardaş Türkiyədə də onun möhtəşəm əsərlərinin pərəstişkarları var. Elməddin Bayramovun bu ölkənin müxtəlif ali təhsil ocaqlarında, kitabxanalarda islədiyi əsərlər göz oxsayır.

Sevindirici haldır ki, TÜRK gəncliyi sənət və gözəlliyin eyni ortamda birliyindən zövq alaraq gələcəyə boylanacaq.

Rəssamın da dediyi kimi, yaxşı olardı ki, ölkəmizdə bu sənətin inkişafı ciddi nəzarət altına alınsın. Ən azından bu sahənin ali məktəblərdə tədrisinə şərait yaradılsın. Ölkədə bu işlə məşğul olan insanlar təbliğ olunsun. Bu sənət növünün inkişafında onlara yüksək səviyyədə, hərtərəfli dəstək göstərilsin.



**Ozan AYŞƏ**

***P.S. Bu cür istedadlar yüz ildə bir gəlir dünyaya, bəlkə də nadirən. Çox istərdik, istedadlarımızı ilk öncə özümüz kəşf edib, layiqincə dəyərləndirək. Dəyərləndirək ki, xalqın sənətdən, sənətkardan xəbəri olsun, zövqümüz korlanmasın, ruhumuz ölməsin...***

